# AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI

# BANK SERTİFİKAT XİDMƏTLƏRİ MƏRKƏZİ VƏ

# MİLLİ SERTİFİKAT XİDMƏTLƏRİ MƏRKƏZİNİN

# KÖK SERTİFİKATLARININ

# QURAŞDIRILMASI ÜZRƏ

# İSTİFADƏÇİ TƏLİMATI

Bu təlimat, Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən hazırlanmışdır və məqsədi “Bank Sertifikat Xidmətləri Mərkəzi” üzrə tələb olunan “Kök sertifikat”ların quraşdırılmasını izah etməkdir.

Sənəddə verilmiş məlumatlar üzrə bütün müəlliflik hüquqları Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsusdur.

Bu sənədin nəşr olunmuş və ya elektron formada olan nüsxələrinin əldə olunması, istifadəsi, surətinin çıxarılması və yayılması müəlliflik hüququnun qorunması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilməlidir.

Sənəd yalnız “Bank Sertifikat Xidmətləri Mərkəzi”nin istifadəçiləri üçün nəzərdə tutulmuşdur, sənəddə əks olunan məlumatların təhrif edilməsinə və bu təlimatın tələblərinə uyğun istifadə edilməməsinə görə Mərkəzi Bank məsuliyyət daşımır.

# Kök sertifikatların quraşdırılması

1. https://bsxm.e-cbar.az saytında proqram təminatı bölməsinə daxil olmaq və “Kök sertifikatları” menyusu seçilir. (bax şəkil 1)




şəkil 1

2. Açılan pəncərədə ardıcıllıqla yerləşdirilmiş kök sertifikatları kompüterinizə yüklənilir. (bax şəkil 2)

## KÖK SERTİFİKATLAR

| Sertifikatın adı | Sertifikat sahibi | Sertifikatın qüvvədə olma müddəti | Yüklə |
|---|---|---|---|
| AZ Root Authority(RCA) | Milli Sertifikat Xidmətləri Mərkəzi | 28.06.2028 | |
| AZ Policy Authority(PCA) | Milli Sertifikat Xidmətləri Mərkəzi | 28.06.2028 | |
| ARMB BSXM | Azərbaycan Respublikasının Mərkəzi Bankı | 18.03.2027 | |

şəkil 2

3. AZ Root Authority(RCA) , AZ Policy Authority(PCA) , ARMB BSXM sertifikatların yükləndiyi direktoriyadan, hər birinin eyni qaydada kompüterinizə ardıcıllıqla quraşdırılması tələb olunur. Bunun üçün quraşdırılacaq sertifikatın işarəsi üzərində “**Open**” düyməsini sıxın. (bax şəkil 3)




şəkil 3

4. Daha sonra **Open** düyməsini sıxın, sonra isə **"İnstall Certificate"** düyməsini seçin. (bax şəkil 4-5)




şəkil 4




şəkil 5

5. **Certificate İmport Wizard** pəncərəsində quraşdırılacaq sertifikatın hazırki istifadəçi (Current user) və ya həmin kompüterdə çalışan istənilən istifadəçı (Local machine) üçün əlçatan olmasını seçərək “**Next**” düyməsini seçin. (bax şəkil 6)




şəkil 6

6. Növbəti addımda açılan pəncərə quraşdırılacaq sertifikatın **“Sertifikat saxlancı”**nda hansı qovluqda yerləşəcəyini seçməyə imkan verir. (bax şəkil 7)

**QEYD:**

**Milli Sertifikat Xidmətləri Mərkəzinin AZ Root Authority (RCA)** sertifikatı “Sertifikat saxlancı”nda “Trusted Certificates Authority” qovluğuna yerləşdirilməlidir;

**Milli Sertifikat Xidmətləri Mərkəzinin AZ Policy Authority (PCA)** sertifikatı “Sertifikat saxlancı”nda “İntermediate Certificates Authority” qovluğuna yerləşdirilməlidir;

**Bank Sertifikat Xidmətləri Mərkəzinin ARMB BSXM** sertifikatı “Sertifikat saxlancı”nda “İntermediate Certificates Authority” qovluğuna yerləşdirilməlidir.




şəkil 7

7. Növbəti pəncərələrdə "**Finish**" düyməsini seçdikdə, Sertifikatın quraşdırılma prosedurunun uğurla başa çatdığı barədə məlumat veriləcəkdir (bax şəkil 8). "**OK**" düyməsini seçərək prosesi bitirin. (bax şəkil 9)




şəkil 8




şəkil 9

**Qeyd:** Düzgün quraşdırılmayan "**Kök Sertifikatlar**" istifadə edəcəyiniz hər hansı sertifikatın "**Sertifikat zənciri**"ndə məntiqi ardıcıllığını poza bilər.